www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

"Gənc yazarın e-kitabı" N 40 (05 - 2013)

İbrahim Sel

"Hazır alın yazısı"

Modern şeirlər toplusu

Gənc şair-araşdırmaçı İbrahim Selin ilk poetik e-nəşrində – yeni şeirlər kitabında onun modern üslübda qələmə aldığı ədəbi-lirik nümunələr daxil edilib. Müəllifin elə yazıları vardır ki, ciddi polemikaya uğrayacaq, digərləri isə əsl gənc şair çılğınlığı ilə qələmə alındığı nəzərə çarpır...
E-kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2013. E-nəşr N 42 (09 - 2013)

2013

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

"Gənc yazarın ilk e-kitabı" 42 (09 – 2013)

Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumu ilə http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Gənc yazarların İnternet resurslarında e-kitabla iştirakı təlimi" ("Gənc yazarların maarifləndirilməsi. İnformasiya texnologiyaları istifadəsinin inkişafı" altbölümü) kulturoloji-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 42 (09 – 2013)

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Azərbaycan Respublikası Prezidenti (layihə başlayanda isə Gənclər və İdman Nazirliyi) yanında
Azərbaycan Gənclər Fondu:

http://youthfoundation.az

İbrahim Sel

"Hazır alın yazısı"

Modern şeirlər toplusu

Gənc şair-araşdırmaçı İbrahim Selin ilk poetik e-nəşrində – yeni şeirlər kitabında onun modern üslübda qələmə aldığı ədəbi-lirik nümunələr daxil edilib. Müəllifin elə yazıları vardır ki, ciddi polemikaya uğrayacaq, digərləri isə əsl gənc şair çılğınlığı ilə qələmə alındığı nəzərə çarpır...
E-kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2013. E-nəşr N 42 (09 - 2013)

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

"Gənc yazarın ilk e-kitabı" silsiləsindən bütün kitablarla buradan tanış olun:

http://www.kitabxana.net/?oper=e_kitabxana&cat=167

İbrahim Sel

Hazır alın yazısı

Kitab tələbələr, əsgərlər və jurnalistlər üçün nəzərdə tutulub

Ready made

Məlum olduğu kimi təsviri incəsənətdə 20-ci əsrin əvvəllərində fransız rəssamı Marsel Düşamp ilk dəfə "ready made" cərəyanını yaratmışdır. O sərgiyə yalnız əşyaları- bel, velosiped təkəri, pissuar, rakovin, paltar qurutmaq üçün veşilkanı və s. gətirmiş və öz ideyaları ilə o dövrün incəsənətinə böyük təsir göstərmişdir. Azərbaycanda ilk dəfə hal-hazırda mühacirətdə yaşayan Babi Badaloff "transqafiyə" silsiləsindən "hazır şeir" cərəyanının üstündə şeirlər yazmışdır. İbrahim Sel həmin nəzəriyyənin davamçılarındandır. Artıq yazılmış və dərc olunmuş şeirlərə "hansı cərəyandan asılı olmayaraq" yenidən yanaşma, süjet xəttinin qurulmasında müxtəlif mətnlərdən və fikirlərdən istifadə, ideyaları yenidən həyata, ədəbiyyata gətirmək, yeni nəfəs vermək, işlənmiş mövzular əsasında yeni kompozisiyalar qurmaq və s. eksperimentlər Selin iş prinsipinin əsas qayəsidir.

Ön söz əvəzi

Alın yazısı şeirdi?

yoxsa nəsrdi?

onu yazanlar böyük tayfadı,

yoxsa kiçik nəsildi?

Aşıq, mən gör neçə ildi

bu yazını oxuya bilmirəm,

əgər mən…

Aşıq, sənlikmi bu riyazi düstur?..

…bəlkə mumlayasan?!

Həmid Herisçi

1-ci hiccə: Çılğın Sevincimin doğurduqları

Nə qədər şeir var

Adamlar doymayacaq sevişlərdən,

Kim bilir

Sevişmi öncə yaranıb

Ya şeirmi?

Elxan Zal Qaraxanlı

Dembel boyatıları -1: Upuzun gecə

Bir balış altda

bir balış üstdə

başımı soxub yatsam da

açılmır sabah, yata bilmirəm

ikimərtəbəli çarpayının

üst hissəsində uzanıb

saatlarımı sayıram

kazarmanın yarıqaranlıq küncündəsə

dembellər yığışıb

nəsə oxuyurlar pıqqıldaşaraq

Xeyr

onlar poeziya çələngi oxumurlar

nədə dembel bloknotu

yenə də qadının cinsi orqanının

taktiki-texniki xüsusiyyətlərindən

bəhs edən kitab düşüb əllərinə

qırışmalların

Neyləmək olar,

ta Əliağa Şıxlinski dönəmindən

qara deşik cəzbindədir

püskürən artilleriya

Nədən ki biz duyğyların

maqnit sahəsində yarıməsirik

sevgi ilahəsinin hökmündədir

topçu yazıq da

başqa məxluqlar kimi

mən də

səhərin gözü açılmamış

yanına gəlmək istəyirəm

Darıxmışam, Sara

Yanını istəyirəm

Dembel qardaşlarım çağırsalar da

məni o kitab maraqlandırmır, Sara

Onlar bilməsələr də

sən ki bilirsən

yanını istəyirəm.

“Bura çox dardır,

bəlkə qabağa keçəsən” deyərsən

”Sənə guya ləzzət eləmir ki”

deyə işə başlaram astaca

Gah yalvararsan çıxart,

gah yalvararsan sal

sən də qəribə qızsan, Sara

mənim dar gözəlçəm

Orqazmo da soyuq kimidir

adamın iliyinə işləyir

adamın sümükləri gizildəyir

Heyf, bundan sonra

sevmək qorxusu yaşayırsan

sən demə sevməkçün

ayrılıq da lazımmış

həllini bilmədiyimiz həyat tənliyində

ayrılmaq əslində sevməyin

asan həlliymiş sən demə

Mülkidə indi hamı kefdədir

kimsə yol gedir

kimsə yol gəlir…

içi boş otağın qapısı döyülür

“Dostlardır”-

kimsə gözlükdən baxıb gülümsənir

hardasa stolun üstündə kolbasa, şprot

və rus arağı…

və mənim sevdiyim xiyar turşusu

bəzən kölgələr görərsiniz

pərdə ardında gəzinən

bəzən də incə qəhqəhələr eşidərsiniz

Kimsə hardasa ad gün günündə

durmadan konyak qovur

saat on ikidən sonra içilən

bütün içkilərsə adamı uydurur

Kimsə kimisə haradasa gözlətdirir

oblom eyləyərək

kimsə kimisə razborkaya çağırır

kiminsə bu gün

köşəsi var, şantajı var

hansısa qəzet səhifəsinə

Hansı kişininsə ürəyi çırpınır

nəfəsindən bilinir

qaça-qaça

Hansı qadınısa ağlamaq tutur

ehtiraslı orqazmdan sonra

Üstündəki kişininsə xorultusu

başına alır evi…

Mənimsə ürəyimin antennası

yalnız səni tutur

Çox pisliklər gördün məndən, Sara

Sevdiyim və ya bilmirəm

bəlkə sevmədiyim üçün

səni söyərdim

hər təhqirin ardından

bədənimizin qovuşması

ehtirasların başlanğıcına dönüşərdi…

Amma indi sənin bədənin

kimin xəyalıyla isinir

onu bilmirəm…

Mənim əsəbi gözəlçəm

mənim şeytancığım

bilmirəm nədən səni görən kimi

gözlərim parıldayır

hə-hə, sanki gözlərimdə şam yanır…

İndi ürəyimdən qatar relsləri keçir

Daha on günüm qaldı, Sara

ütülə qırışmış kostyumumu

Tozsoranla süpür tulla oynaşlarının

xatirə tör töküntülərini otağından

bir az da pul tap papandan

Hərdən pis yuxular görürəm, Sara

Görürəm ki, lümpenlər inqilab edirlər

Bəlkə də dağınıq yaddaşımın

səhifələrindən gəlir bu inqilab havası

səpələnmiş, parakəndə duyğularım

yenə sola, sola, sola!

Siz burjuyları qırırlar yenə

qaça-qaça tez özümü

qapınıza yetirirəm

-Ey insanlar!

Bu nə həngamədir?!

Mən yoxam…

Yox olmuşam!

Dəli olmusunuz- nədir?

Mənim Saramı…

Çıxın çölə

Bu mənzildə yuvası yox

axmaq hörümçəklərin

Bir sən varsan, bir mən

Sənsən gözəl- Etalon…

Və sən başını söykədin köksümə

əynində pantalon

güclü qollarımla

çəlimsiz çiyinlərini

mən də basıram bağrıma

Elə bu dəm

işığı yandırdılar:

-1-ci, 2-ci batareya,

Qalx!..

Dembel boyatıları - 2: Təsir

Vətən yolunda

göbələk oldum

özüm yox

barmaqlarımın arası.

İntiş.

-1-ci, 2-ci batareya,

Qalx!

bağıraraq çarpayıları təpikləyir

bu raxit növbətçi

Tumboçkanın gülü adlandırdığımız

bu Xındırıstan uşağı.

Lənət sənə, kor şeytan!

Yenə sükutdan bizi

hirsimiz oyadacaq

Dəmir şkonkalar arasında

gözlərimi ovuşdururam

buz kimi soyuq əllərimlə.

Gözlərimi deşir az qala

barmaqlarımın buz kimi soyuqluğu

Elə heç istəməzdim

duram

yalvarardım az qala

“Nolar bir azca da qalaq

yuxuda ikimizcə…”

Elə ki dolayardım

qollarımı boynuna

toxtayardım eləcə

dünyanın bütün küt ağrıları

çıxardı bədənimdən

Mənə səndən

iynənin ucu boyda ümid gərək

Hamısı yadıma gəlir, Sara…

“Vaxtdır!” kimsə mırıldanır

ayrılıq xəyallardan

üz qırxdığımız jiletdən

ayrılırıq itələnərək sıralara

zamanın sərt əliylə.

Üz gözündəki su damlası

dembelə göz yaşlarını gizlətməkçün

gözəl bir şansdı.

Siyahıdan oxuyurlar:

“Filankəs!”

Kimsə deyir “Burda!”

Qabağımda gənc əsgərlərin

üzülmüş, nazik boğazlarının

kantı vurulmuş peysərləri

yan-yana.

Oho, bu gənc zabit deyəsən

mənim də adımı çəkir.

“Tutaq ki, mən”

“Olmadı! Başa düşmədim.

Çaşmısan, əsgər?!”

“Dembeldir” sakitləşdirir onu

yanındakı baş leytenant-

mənim “ober litinant” adlandırdığım

batareya komandirimiz

Yenə gidişir çiyin-başım

qoltuğumun altından bir bit tapıb

çıxarıram ləzzətlə yenə

kayf verir mənə bu qanımızı

soran yırtıcıları qıranda

iki dırnağımın arasına qoyub

çırtaçırtla partladanda

istəyirsən birini də

tapım çıxarım

Biri də deyəsən sol çiynimin

üstündə gəzişir axı

lap mələklərin əyləşib

günahlarımızı yazdığı yerdə şoğərib

Bilmirəm günahlar yazan

sağda əyləşir, ya solda

bircə onu bilirəm ki,

savabları yazan

heç bir iş görmür dannı moment

bir şey yoxdur yazmağa

bekardır, başa düşürsən, Sara

Atan demişkən, sadəcə, havayı maaş alır.

Eh, Sara, həsrət vurdu yenə

kəllə-çarxa

unutmaq olmazmış səni

sən elə düz deyirmişsən

itirincə anladım bunu…

Oho, bit qoy gözləsin!

Böyrümdəki gənc əsgər

Yaman qımıldanır

Nə olub, bit düşüb

dünyanın orqaniziminə?

Deyəsən gənc əsgərin

fırlanma mexanizminə

kimsə barmaq eləyib.

Düzdür, əsgər?

Düz dur, əsgər!

Yoxsa şıllaq yemək istəyirsən?

Yoxsa qabağımdakı gənc əsgərin

peysərinə yumruq ilişdirim ki,

sənə də dərs olsun, hə?

Farağat!

Düz dur, gənc əsgər!

Qollarını sal yana

irəli düz bax

yoxsa deşiyindən tüstü çıxacaq

Sənin hələ dembel olmağına

çox var, mənim balam

sən hələ çox dırnağınla

yer eşəsən gərək.

Alpinist kimi düz divarlı dağa

dırmaşarsan

oçko deşiklərini hələ çox

parıldadarsan

buksirdəki topun təkərləri

az qalar çıxa üstünə,

xəşilləyə səni

odda yanmaz, suda batmazsan

çöllükdə hələ çox perlova gəmirərsən

Sən hələ çox qıy vurarsan

mənim yerimə dembel olmaq üçün

Odur ki, düz dur

vətənə xidmət elə

bir az fırlat

bir az işlə

bir az daş at

bir az düş yat

bir az öyrən

bir az diyirlən

Hər şeyə birdən yox demə

Yoxsa oçkoya basarlar

dembel qardaşlarım səni

Hər şeydən bir az

Nə az, nə çox

Bax beləcə

günlərini vur başa

Başa düşdün?

Ay çox yaşa!

Mənsə yağımı sənə verərəm

yeyərsən hər səhər

qoy gönün qalın olsun

Paqon təpiklərinə dözəsən

Qoy bədənin heyli olsun

gecəki qoqludan sonra

üzülməyəsən

Məndən sənə məsləhət

hasarın o üzündə gəzişən

yarıçılpaq xalalara az bax həsrətlə

Qardaş canı düz deyirəm

Sevirsənsə təmiz sev

mənim kimi

güclü sev

çünki güclü sevənlərin

əks tərəfə

güclü də nifrəti olur

mənim kimi

Düz demirəmmi,

xəyalımdakı çılğın Sara?

Sən ki bilirsən

Təsir əks təsirə bərabərdir…

Dembel boyatıları - 3: Hirs

Bilirsən?!

Mən əslində

Səni görmək istəyirəm.

Çılğın Sevinc

Səni oda atmaq

oddan qurtarmaq

sonra yenidən oda atmaq

üstünə su çiləmək

beləcə

özüm istədiyim kimi eybəcər

hala salmaq istəyirəm.

Səni suya atıb

başından basaraq

boğmaq istəyirəm

səni suda batıb

boğularkən qoynumda

sahilə çırpmaq

nəfəsinə nəfəs qatıb

oyatmaq istəyirəm

nədənsə…

Səni qatar altına

itələyib

son anda jaketindən

dartaraq yerə kolazlamaq

istəyirəm

Sonra sənə baxıb yerinə

göynəmək istəyirəm.

Səni o ipək saçlarından tutub

başını daş üzlü divara çırpmaq

sonra ayağımdakı botinkayla

əndamına döşəmək,

döşəmək, döşəmək…

Sonra dağılmış əndamını

özüm bildiyim kimi

yığaraq düzmək

bir başqa ləzzət…

Gözlərin bərəli qalır

Niyə başa düşmürsən

Mən əsgər gedərkən

Sən heç kimin əlinə düşməyəsən deyə

səni öldürmək istəyirəm

Mən gedirəm

əlləri uzalı qalıb

əllərimin

Həmişə ayrılıq vaxtı gələndə

vəhşi olur sevgi ehtiraslarım

sənin çılğınlığını, ehtiraslılığını

düşünərkən

xəyallarımın bolluğundan

hücum çəkir vahimələr…

Gəl içək!

Nə desəm az. (S. Ç.)

Bir söz demək istəyirəm sənə

qulağına

heç kəsə deməzsən, yaxşı?

Qoy heç kəs bilməsin-

“İstəyirəm öləsən mənimçün!”

Gülmə zarafat eləmirəm.

Bilirəm mən cığalam

Oynamaq istəmirsən

bir daha

iki xəyanətimə göz

yummusan

bir daha yummaq istəmirsən

Bilirəm bu dəfə

istəyirsən mən yumum

gözlərimi

Yox, onu görməyəcəksən!

İncimə! Mən buna dözmərəm

Mənasız illərinə

heçə paylanan

günlərinə, aylarına

ağlayan qadınlar kimi

mısmırığını sallama gəl

İçməyinəsə bir söz demirəm

İstəyirsən özüm süzüm

Yırğalanan bədənindən

əllərindən tutub

deməyəcəyəm: “bəsdir, içmə!”

Gəl lap bir yerdə içək

Sən mənim sağlığıma

Mənsə sənin saflığına…

Sənsiz ilk qar

Səni elə bil

bəmbəyaz qardan düzəltmişdilər

Mənim qar oyuncağım!

İsti yatağa girəndə

gözlərimin önündəcə

ərirdin

Sənin qar soyuqluğun

Şərq baharının istisindən

bərk yandırırmış adamı

Mən bunu sənsiz ilk qar

yağarkən anladım

Elə bil bu qarda

yox oldu həyat

Kimsə bilmədi nələr

çəkdiyimi

Nələr qaldı qarlı yolda

nələr itdi

gəl

yaşamaq istəyirəm

səni yenidən

istəyirəm

olmur

Tale deyilən nəsə varmış

Elə hey dediyini deyir

qoymur adam kimi

yaşamağa

Səni itirmək bahasına

başa gəldi bu bahar

Ayrılıqlar qovğasında

tuş gəlincə həyatım

sən durdun astanada

əl yelləmək qaldı mənə

mənim qar oyuncağım.

Başımda dolaşan qar havasının

qüssəsindən daşa-daşa

sevincdən hər an

bir qarış uzaq

İztirablar yollarında

sürünürük yavaş-yavaş

Yar, yar!..

Gəl gör məni darmadağın

Tel-tel sökülüb qalmışam

Yar, yar!

Qanımın çəyirdəyində tikan,

Gözümün bəbəyində sitəm var

Hisslərimin çılğın bağırtıları

yollara çırpılır

hirsimdən öldürmük istəyirəm

qardan başqa qaramatları

Yenə qış gələcəkmiş

Səni unutmaq nə zor

qar yağırsa başına

yaraşıqlı şəhərin

Səni unutmaq nə zor

qar yağırsa başına

gur işıqlı yerlərin

Səni unutmaq nə zor

qalxa-qalxa, çökə-çökə

qar dolursa

yaş axan gözlərinə

ölmüş arzuların matəm marşını

oxuyur göz yaşlarıyla

qar suyunun inikası.

Səni unutmaq nə zor

bir qız ötüb keçirsə

sən geyən paltoda asta-asta

Bir də qar yağacaqmış…

Sakit-sakit, nazlı-nazlı

yağan qar…

Daha mən o qar adamı

görməyəcəyəm…

Ey ana Vətən!

(olduğu kimi)

Bu dünyanın baş daşına

salacaqlar:

“salım başına bu dünyanın”

(S. Ç.)

Kriminal xəbərlərində

“İntihar etdi!”

deyəcəklər.

Aha!

Mən də varmışam…

Nə tez anladın?!

Onda

ağlama!

Yoxluğuma ağlama!

İtirmək bu qədər asan-

hardan biləydin,

necə inanasan?!

Ağlama,

onda ağlama

Mən sənincün yaranmışdım,

sənincün də öldüm.

“Sənincün ölərəm!” deyirdim

Gördün?!

Kübar xanım

(Qul bazarında duran fəhlənin dilindən)

Nə qədər yaxında olsan da belə

O qədər uzaqsan,

kübar xanım

Sən kübar, mən qaba.

Ayaqlarımın altı qabar

Əllərimin içi

İçimdə bir qacaq qübar

Kim bilir

hansı uçurumlardan aşdı

ayrılıq mənə qədər-

daş-torpaq qoxusu

ayaqlarımda

Səninsə əllərində

milyonların əl yeri

Gendən baxan deyər

nə dərdin, nəyin çatışmır

Ancaq kim bilir,

hər şeyi qurban verərdin

bir dəli sevgiyə, kübar xanım.

Həyatda qovuşmaq şansımız yox

Sağ ikən qovuşa bilməyənləri,

bizdə derlər ölüm qovuşdurar,

kübar xanım…

2-ci hissə: Dış İntiş və Əsən

(İntiqam Hacılının çöl üzü və Yaşar Əsənin unudulmağına qarşı)

Təsadüf

Mənim paralel dünyalarım ilə

buralardakı hər hansı “mən” üçün

mövcud olan paralel dünyalar

eyni deyil

paralel dünyalar

bir müstəvidə deyil

bütün kəsişən xətlərdədir

əzizim

Səni ilk gördüyümdə

şəhər bağında oturmuşdun

oturmuşdun qəmli-qəmli

yanında oturmaq olarmı soruşdum

bir müddət tutqun-tutqun baxıb

olar dedin

Sən hələ öz içindəydin

Güldürməyə çalışdım

Heç gülmədin də

Mənim necə sırtıq olduğumu dedin

sevindim və sağ ol dedim

Və yenə davam etdim

Ruh gəldi mənə

ağzım qızışdı

Sonra tək olub-olmadığını soruşdum

Bir az fikrə gedib

Təksən dedin

“Sən bir təsadüfə bax

mən də təkəm” dedim

Bir kafeyə gedib birlikdə

bir kofe içməyi təklif etdim

Sən qaşqabaqla qəbul etdin

Ancaq kofe əvəzinə

sevimli içkimi gətizdirdim

saatlarca danışdım

skandal və maraqlı həyatımdan

bir yüz də

bakı-ceyhan borusunun

şərəfinə qaldırdım

bəyənilsin

yalandan dedim ki

bir dostum ispaniyada yaşayır

bir dostum almaniyada doğulub

mənsə azərbaycanda

son qəmim olsun, ha-ha-ha…

O qədər uşaqlıq etdim ki

məcbur oldun yaşımı soruşasan

inanmadın

soruşdum o tayın

ən demokratik insanı

saymanı tanırsanmı?

Bu yaxınlarda təzyiqlərə məruz qalıb

dedin yox

O, madam, deyim deməyim

sizdə çox şeylər uyuşmyr

məsələn, gözəlliyinizlə

savadsızlığınız heç uyuşmur

Qadının qapağı gərək elə olsun

içi boş olsa da dolu görünsün

yaxşı ki demədim

susub danışmamaq

özün bilirsən

ən böyük sərvətdir

bu sərxoş həyatda

yadımdadır, bir dəfə

institut illərində bir qıza

dəhşətli dərəcədə vurulmuşdum

lakin onun hərfləri

necə eybəcər yazdığını görən kimi

məhəbbətim bircə anda

uçdu getdi quşlar

Sonra bizə qonaq

getməyini xahiş etdim

duruxdun

susmaq razılıq əlamətidir deyib

qoluna girdim

Sonrası yadıma gəlmir

çünki belə işlərdən qabaq

həmişə çox vururam

İnsafən deyim ki

heç getmək istəmirdin

zorla çəkə-çəkə apardım

doğrudan da zatən də

həqiqətən də deyim ki

belə o saat razılaşmayan

qızlardan xoşum gəlir

Səhər xasiyyətimə uyğun

yatağına kofe gətirdim

üzündən öpərək

həmişə qaşqabaqlı olmağının

səbəbini soruşdum

kofedən bir qurtum içib

saçını geri tulladın

deyəsən kofe

tünd olmuşdu

incə bir mətinliklə

çünki mən spidəm

dedin

əsən yaşa

yox əlimdəki kofe stəkanı

yerə sallanmadı

təkcə qaşqabağım sallandı

kibrit qutusundan küsdü siqaret

Tezcə bir kibriti alışdırıram

Odu siqaretlə barışdırıram

canını alıram siqaretin

xəyalın fikir yelkəni

dartdı apardı məni

o tarixi tireyə

ömrün məzar daşındakı

doğumla ölüm arasındakı

o kiçicik tirəyə

divarın o üzündə

qonşunun zırrama oğlunu

ağlamaq tutdu

səsi diksindirdi məni

başımı qaldırıb

o kişiyə dua etmək istədim

çılçıraq tavandan üstümə gəldi

durub balkona çıxdım

Bir taksi də durub yol ortasında

baxırsan içində sürücüsü yox

evlərdə işıq var

radio yanır

fəqət camaatın gurultusu yox

paltarlar iplərdə quruyub qalıb

fəqət götürəni yox

geyəni də yox

Biri yaşıl işıqda yolu keçir

ona dayan deyən yox

dur deyən yox

Qəribləşdi dünya

batdı günəşi də həmin səhərin

arzum, ümidim də

üfiqdə itdi

əlimi üzümə apardım

ilk dəfə üzümü qırxdığım gün

yadıma düşdü

gülümsündüm

Yolumu azdıran şeytan

Dincəldin?

Bu da Bethoven musiqisi altında

romantik sevgi gecəsi sənə!

Doydun?

Ac ruhum eşq üçün

yaman darıxmışdı

Ac və yoxsul göründü mənə

bu günkü sevgimiz

oturdu bir gecəyə

yedi kefimi getdi

Ac və yoxsul göründü mənə

bu günkü sevgimiz

bilirdim ki havayı sevgi olmur

ancaq yenə…

ancaq yaxşı deyib şair

adam çaş qalanda

kaşları çox olur ortada…

Nə olaydı kaş

sən də o birilər tək

get anqır tayını tap

deyəydin

əlbəttə

mənim üçün

paralel olan dünyalarda

yaşayanların özləri üçün də

paralel dünyalar vardır

Bəli, hər bir başqa

paralel dünyanın da

öz paralel dünyaları vardır...

Necə yəni mən spidəm?!

Kofe süzdü stəkana

Siqaret yandırdı.

Çəkdi

Çəkdi

Siqareti

Közü dağılmadı yerə.

Qurtum-qurtum

Kofe içdi.

Baxdı əqrəbsiz saatına

Saymağa başladı

1-2-3

Nəsə fikirləşdi.

Bəsdi.

Qalanını

Çiynimdəki mələklər sayacaq.

Bəmbəyaz divar idi önündəki

Güzgüsü göz vurdu.

Əcdadını düşündü;

Necə qaranlıq mağarada

Tonqal yanır

Bu tonqalın önündə

Rəqs edən
Qadının kölgələri
Divara düşür
Qadınla divar arasında
Üzü divara doğru
Bir adam oturub
Kölgələrin titrəyişini izləyir
Ancaq qadını

Və tonqalı
Görmür
Əsdi
Gərnəşdi

Zülmət deşiklərdən

Yer üzünə çıxan

Siçovul tək

Çıxdı

Çölə.

Mənim spidli sevgilim

bax, ot yarpaqlarının şüaları

yatağına doğru yönəlir

və səni

saysız-hesabsız otların

dilçəkləri ilə öpür

öpür sənli duaları…

sən məni öpmürsən amma.

daşlara toxunub

yazıb doldurulmuş divarların

bütün sərvətləri oxunub

bu işarələrin arasında

mənim fikirlərim də köhnəlib

köhnələr arasında…

təzə bir şey yoxdu

heç yerdə indi…

bax, mən sakitəm

mənə təyin olunmuş

tale möhüründən qaçmışam.

söylə, indi acmısan?..

axı necə oyanmayasan,

şən şərabı istəməyəsən…

saçlarını tumarladım,

bütün libaslarının

əynində qırışlarını düzəltdim,

hamarladım.

“Spidli günlər” seriyasından daha bir

ah, nə ağılsızsan sən!

mən necə unuda bilərəm

çox günlər öncəki çayı,

sən necə gənc idin.

bir ruh keçdi

sənin üzərindən

və mən gəldim.

qanad açdım üzərində

burunlarını ovdum,

və onların hamısını qovdum.

çox yaxın idim sənə,

yollarını tanıyırdım

sənin budaqlarına,

qırış basmış ovcuna,

toxunmuşdummu məgər

barmaqlarının ucuna?..

sənin üzərindən

və təpələrin ətrafında uçarkən

necə daxil ola bilərdim

sənin içinə,

məgər mən səndən

və sən deyildim…

heç bir günəş mənə tərəf gəlmir

qəlbim bir viranlıq

qəlbimi dağıdır sərxoş qaranlıq

üzərimdə parlamır heç bir şüa da

və sən günbəgün susursan

susur dilindəki şüa da…

ah, bütün işarələrə,

bütün bu ibarələrə

və qapı üzərindəki sehrli gücə

baxmayaraq

çıxıb getməyə məcbur edə bilərdim

özümü…

hər şey sakitdir,

hələlik,

tərəddüd də etmirəm

mən heç yana getmirəm,

mən heç yana getmirəm!..

Mən spidəm

ola bilsin ki, mən

başdan-başa müqəddəsəm;

sən gəldiyin andan

sarsılıb ətrafdakı məkan…

payız güllərindən toxunub o…

o qızılı rəng başqa…

və kimsə ki,

belə incə,

dalğaya bənzər lentləri olan

gələcəyi bu əşyalarda görür

dalğaların solğun,

asta yaşıl burulğanı altda

özünü hörümçək toruna hörür…

var-dövlət deyə saxlayacağıq

o əşyaları ki

öz adlarından daha yaşlıdır

o əşyaları

biz allaha bağlayacağıq…

Özgürlüyə çıxan yol

(Rusiyada təcrübə keçməyə gəlmiş ellimlə baş-başa)

Sən ilə baş-başa

mətbəxdə oturmuşduq

önümüzdə Jiquli pivələri

və dolu bir butul araq

Danışırdıq öz dilimizdə

arada baxaraq

yanındakı xalaşkanın donuq gözlərinə

Yanımızdakı xalaşkan

həmişə olduğu kimi bu gün də

gözəl və seksi idi

Bilmirəm o bunu sənə göstərirdi

yoxsa ki mənə

Danışırdıq

bir ortaq nöqtə axtarırdıq

amma alınmırdı

Araq qoymurdu yenə

Hə, igid oğlan

başını dik tut

köksünü ver qabağa

sonra danışarsan dostlarına

necə bir xalanın

duyğularıyla oynadığına

və kimliyinə toxunduğuna

Adam içəndə necə də dili açılır

bu araq da

qabında olanda cansız olur

elə ki içəri getdi

şirə dönür

Demək nədən danışırdıq, ellim Eli?

Yox, sənin xalaşkanın gözlərindən yox

bilirəm onlar sənindir

Bilirəm indi deyəcəksən

“sən ağıllanmadın də

dilinə dəydi ki, həmişə çaşırsan”

Fikir vermisənmi, Eli

adam əsl seks görəndə çaşır

Sənin xalaşkanın da

gözləri əsl seksdi

Elə sənin həyatın kimi

Yaxşı sakitləş, Eli

üstümə gəlmə

tələsmə məni öldürməyə

İllərin sənə lazım olacaq

Harda qaldıq, Eli?

Keçək mətləbə.

Demək dedilər

ən böyük elm həyatdı

keçdik onu öyrənməyə

gördük ki, ən böyük həyat seksdi

düşdük çöllərə

Qələt elədi o vaxt

cənnətdə lüt gördü həvvanı adəm

biz də o vaxtdan girişdik

buğda alverinə

əkdik, biçdik, yapdıq

belimiz doysa da

gözümüz doymadı

heç elə də iş olar

bizə az veribdir

taxılı yığıbdır dünya

cumduq münbit torpaqlar axtarışına

Fırlandıq bu fırlanan dünyanın

bu başından o başına

Ay sağ ol

Dünyanın fırlanma mexanizminə

bir az sperma töküb

yağlamaq lazımdır ki

qoy yaxşı fırlansın

cırıldamasın

zırıldamasın

Sən demə dünya boyda bu tarlada

bütün insanlar sevə bilər

amma bütün insanlar sevişmək bilməz

Bu da həyat

Ya sevmək

ya sevilmək məktəbi

və nə olsun ki ən acı dərsi

sonunda qala biləcək

boz yalqızlıq ola bilər

boş şeydir hamısı

vətən elə ən çox bazlıq edən

hətəm kişidi ki durub

harda yaxşıdır çıx get ora

Döşəməyə tavan yalnız

tökülüb dağılanda qovuşar

Bəs neyləməliydik ki?

İnsanlar məgər yalnız

vətənin əziyyətini çəkmək üçündür?

Vəssalam?

Bizdə uşaqlar

hər şeyi qarışdırıblar

savabdır deyə qurbağanı

ilanın ağzına atırlar

Yox mən belə acı

piroqlardan istəmirəm

Yaxşı deyib yoldaş Çao Mao Çunq

Bir ölkədə ki

rüşvətə hörmət derlər

xiyara ziyalı

ağ çaqqala ağsaqqal

o ölkədən qaç qurtar

Ağ çaqqallar

durublar başımız üstündə

ağıl öyrədirlər bizə

gah burda, gah da orda

yeri düşdü düşmədi

sən də özünü elə göstərirsən ki

guya bu adamlar olmasa

bir addım da ata bilməzsən

Kim, nə üçün düşünüb bütün bunları?

Qara kahinlərmi zaman-zaman?

Ağlın ağlasığmaz yerinə girmək üçün

pıçıltıyla deyilən sehrli dualar bunlar

həyatın ağlasığmaz girdabına

yuvarlanmaq üçün…

min il sərasər

yolumuza işıq saçır

qaranlıqda bir ərəb

yarıaçılmış ağzında ay

hər yerdə əvvəl söz oldu

sonra da gülüş səsləri

bizim xarabadasa

əvvəl söz olur

sonra da göz yaşları

şərab da içmək olmaz bizə

ki əsəblərini sakitləşdirəsən

min il qabaq hansısa bədəviyə

haram buyrulub deyə

onu da bizə qadağan ediblər

ən pisi turşumuş şərab üstündə

cərimələnməkdi

çünki şərab əslində

turşuyub eləməyib

sadəcə içmək istəyirlər

onunçün satmağa apardığın şərabı

bir bəhanə ilə əlindən alırlar

hazırının vergüllər nazirləri

bir sərxoş soruşdu bir gün ilandan

niyə düz keçmirsən yolu, ay heyvan?

dedi: düz keçməkdə varsa bir məna

özün səndələmə o yan bu yana.

Bir ilan qədər də olmadıq

saxladıq içimizdə mumladıq

bilinmədi nədən bu çoxalan yalqızlıq

çevrəmizdə olan inanc binalarının

gündə biri uçub töküldü

bəzən hətta özünü zorla saxlayırsan

ki ağsaqqala şillə vurmayasan

hərdən tutub lap xurdxəşil

etmək də istəyirsən

ancaq lazımdı

yüngülcə şapalaq da olsa lazımdı

qoy yerlərini bilsinlər

o istiotlu fikirlərini

öz keçəl başlarının

yelbeyin divarlarına sürtsünlər

saxla ağsaqqal çatmışıq

fərz etmək olar ki, biz hamımıız

bir az qoymaağıl yaranmışıq

yəqin ona görə də bu qədər

beyni tərpədilmişsayağıq

saxla ağsaqqal, sən cəddün

nurunu bir az uzaq elə

işığın düşür sönürəm

sənin ləyaqətin varsa

köpək oğlu deyilsənsə əgər

hər şeyi öz adı ilə çağır

elə etməyə səni nə qoymur ki?

saxlaaaaa ağsaqqal!

alo qaraj kişi!

Sən və sənin xalqının

nə elektrikdən xəbəri var

nə də onun qanunlarından

siz ancaq cəhənnəmi

yaxşı vəsf edə bilərsiniz

cin və şeytanı

yaxşı tanıda bilərsiniz

nağaranın səsinə bənzəyir

sənin çaldıqların

uzaqdan qəşəng eşidilir

yaxındansa

hava ifrazına oxşayır

bağırsaqlardan çıxan

ayda dalğalanan bayrağın rəngi

de yer kürəsində duyulurmu?

xəzan tək tökülür insan həyatı

sarsıntılar boğur onun mənliyini

deyəsən çox içmişəm

ancaq bir özün de də, Eli

öz kəndlərindən çıxıb buraya

təcrübəyə gələn uşaqlar

ən azı bunu bilməlidirlər ki,

onların “kişi” olmaması prosesində

əsas günahkar elə qoyunlardı

hind kinosunda tanıdıq məhəbbəti

kövrəldik və axtardıq

reallıqda leyli-məcnunu

Nə edək? Tapmadıq

Gözsüz və ürəksiz yaşamaqsa

yaşamamaqdır

Bax elə sən

indiyədək özünü

çox öldürməyə çalışdın

Ancaq burda anladın ki,

özünü öldürməyinin səbəbi

elə həmin qoyunlarmış

Qoyun- bax budur ən böyük sərvətimiz

allah bilir o Azərbaycanda

nə vaxtdan mövcuddur

deyirlər ki islam dini qəbul ediləndən

bu yana mövcud olan

məxluqların ən məsumudur

Nə olsun ki bir balaca

qanmaz təhərdi

əslində belə olması daha sərfəlidi

ağlı olsa ətinə həsrət qalarlar axı

Ey allahlar, allahlar

niyə siz bizi cəzalandırdınız?

Bizim əlacımız yoxmu

dərmanımız yoxmu görəsən?

Çalışaq başımızı tərpətməyək?

ancaq örüşdə otlayaq?

qabağımızdan yeyək?

Yapışıb sarmaşıq günəbaxanın

gövdəsinə bərk-bərk

onu özünə çəkərək

“Qınama məni, ağrın aleym,

axı seveyrəm səni…” deyir

Günəbaxan sərvətlərə

günəbaxan qüvvətlərə

baş əyə-əyə yaşayın

quyruq bulayın, bullanın

çörək verin, şirinlik verin

hörmət edin, hörmətli olun

qoyunları arvad edin

uşaqları qurbanlıq

quzuları parçalayın

canavara day-day deyin

güclülər hər sözünü

tam deyib qurtarmamış gülümsəyin

şalvara qurtarın

onların hər təbəssümündən

bəli baş üstə rəis

sevimli sözləriniz olsun

yaltaqları avtoritet

işverənləri ağsaqqal seçin

bu ikiüzlülük çarxı

qiyamətədək beləcə fırlansın

bu çarxı fırladan boynunuz da

bir gün əyri bitəcək

Bizsə gəl vuraq sənlə

qədəhini bəri gətir, Eli

Başını dik tut

və addımlarını sərt at

yeni bir həyata

Bəli, qucaqla boynunu

yanındakı xalaşkanın

Qoru onu

Bu xala

Hələ ölməmiş duyğularıyla

tərk edilməmiş

dəyişdirilməmiş cazibəsiylə sənindir

Modası keçmiş telefon tək

ocağı kordur deyə

sən yaşamaq istəyirsən onunla

yaşamadıqlarını

məsələn, gəncliyini

bu qəhbənin qoynunda

unutmaq istəyirsən

bu dünyanın qəhbəliyini

Yaxşı əsəbləşmə

Otur yerində

Mən heç də özümü

pis hiss eləmirəm

yaman cındır araq imiş

üstündən də Jiquli içdin

lap pis günə qoyur adamı

Heç sənin bu gözəl qadınının

xətrinə də dəymək istəmirdim

Qoru onu qoru

və inan gücünə

bil ki kişilik

yazığı gəlmək prinsipindən

heç də uzaq deyil

sözün düzü bilmirəm

sənin ona yazığın gəlir,

yoxsa onun sənə

əsas odur ki qulağına nəsə pıçılda

axı dünyada xoş sözə aldanan

qadına bir daha harda rast gələrsən

cümlələri sən qur,

həyatını o

oyunun olsun

oradakı qoyun

heç dünyanın öz oxu ətrafında

fırlandığına da inanmır

buradakı xala isə

lap qatığın qara olduğuna da

inanar

harda görüb ki sadəlövh

Yalanlar bizi çıxardı oradan

burdasa yalanla baş girlədik

ev yıxıb, şər atıb ara vururs a

gərəyi deyildir yalan insanın

əgər sevənləri qovuşdururs a

gözündən vurubdur sənin o yalanın

uzansa qəmginlik

dərd etmə özünə

arağını iç

və dinlə səsini kədərin

dinləmək ən doğru xilasıdı

kədərin

Arada çıx küçəyə

özünü ver havaya

küçəyə bir bax

küçənin seks işi

pivədən də ucuz

bir havanı dəyiş

elə yaxşı elədin gəldin

neynirsən o dünyanı ki

öküzün buynuzu üstə fırlanır

şumlatdırırlar öküzə

yiyəsiz torpağını

O öküzü ki, süd əvəzinə

təmiz neft verir

kəsəcəklər öküzünü

yeyəcəklər bir gün

ətini, südünü, sümüyünü

hətta şeyini belə yeyəcəklər

bəlkə silkələnmək zamanıdı,

öküzüm?

Ey öküzü buynuzundan

dartan şahım!

Ona rahatlıq ver

ona həyat ver

o zaman

necə xoşbəxt olduğunu

görəcəksən

bunu necə bacardığını

görəcəksən

yaşamağın nə olduğunu

göstərəcək sənə

Deyirlər ki,

rəhbər xalqına görə

kəndli belinə görə

tələbə də sağ əlinə görə

cavab verməli olacaq

eşitmisənmi?

Eh, onsuz da heç kimin

heç nəyə inamı yox

elə yaxşı elədin gəldin

orda qarnımız həmişə acdı

doydurmaq üçün məgər

həmişə savaşmalıyıq?

Bu vurhavurda

çəmini tapan gərək

elə yaxşı elədin gəldin

bəs nə edək?

dua edək ulu yaradana

ki, qurumsaqları yaratdı

bizi satmağa?

Yoxsa üzü üstə üzü yuxarı

sürünən padoş məmurlara girək?

Ey ana vətən

bilirdim ki, yaman gündə

dala verənsən

de də sən

sən de də

Nə qədər dərd-sər lazımdır

düzüb-qoşursan həmişə

böyüdürsən yumağımızı

heç bilmək də istəmirsən

səndən nə umacağımızı

işə salıb duyğularımızı

artırırsan qayğılarımıızı

çox vaxt heç eşitmirsən bizi

dinləmirsən səsimizi

bir qırağa tullayrsan

ümidlərimizi, diləklərimizi

sonra da “başını soxma!”

bağırırsan üstümüzə

Biz də əlacsız qalırıq

çarəsiz yollar arayırıq

sənin həyatından yoxa çıxırıq

E yana vətən

nə baxırsan əyri-əyri

alın yazısından mənə

kimin həqiqəti eşitməkdən

xoşu gəlir ki?

Bizdə həqiqətin

bir pişik tullantısı qədər də

qiyməti yox

Qaçıram,

karvanam, qaçıram

hürən itlərindən

qaranlıq gecənin rütubətindən-

sayrışıb göz vuran

çılçrağıma qaçıram

qaranlıq üstümə çəkib ahımı-

saralıb tökülən kipriyimdən

qaçıram

qayıtmaz dən atma

hər uçan quşa

əlçatmaz göylərdir

verər can ona

ürək azadlıqdan gələndə cuşa

oxuyan o dilə, dodağa qaçıram

tükənir ömür

gedir son kimi

ancaq qəbrimizi

sevib medalyon kimi

yaxasından asan

torpağımızdan qaçıram

çıxdıq

sərhəd qapıları çırpıb

getdik

hətta sərhəddə belə

bürokratik nailiyyətlərə

heyran qaldıq

cana doyduq yetər

Elə yaxşı elədin gəldin

nə dinən var nə gülən

çoxdandır güllələnən də yoxdur

Bir gün əşyalar da yeriyəcəklər

başını götürüb gedəcək hər şey

üzür erkək əkələrimizin

ünlü üzləri

üzü gündoğana

üzür ürkək-ürkək

sürüyürlər dallarıyca

üzüntülü görünüşlərini

üzür, üzür yeddi arxın ayrıcında

yarıb ulu suları

köhnə qayıqlar kimi

Cibində küləklər əsirsə

yelkənlərə ehtiyac yoxdur

üzür ulusumuzun solğun üzləri

bir cənnət sorağında

yola çıxır hamı

eh, ümidsiz yolun yolçuları…

Elə yaxşı elədin gəldin

sən bu hərəkətinlə

sanki üzlərinə durdun-

nə cinsi əlaqə

əməlli-başlı

seks gedir

Elə yaxşı elədin gəldin

burda başa düşdük ki

səni sevirəm demək

sənlə yatmaq üçün bir bəhanədir

sevgi pulsuz seksin

bir növüdür

Sən bizə fikir vermə, ay xala

arada gülümsə mışıl-mışıl

bu bizə ləzzət eləyir

biz dərdlər, qüssələr ölkəsindənik

qəm-kədər yeməkdən doyub gəlmişik

arada tumarla bu enerjisi içində

qırılmış igid oğlanının başını

bu bizə ləzzət eləyir

Biz hələ körpələrik

Lap hələ yaranmamış

doğulmamışıq

Ananı qarnında qoyub gəlmişik

şeytanın fəndindən doyub gəlmişik

Allahın dərsindən qaçıb gəlmişik

Qoysa da adımıza qayıb

gəlmişik

bax beləcə

Qorka

öpüşün

Nəsə

siz işinizi görün

mən deyəsən

çox vurmuşam

otaq başıma hərlənir

və başım stolda artıq…

Tələbkar tələbə -1: Tale xətti

Tələbəlik illərində bazar günündən

betər gün yoxdur

Bu gün həyat durğun

və duyğular susqun olur

səhər tezdən durub gözümü

telefona çox zilləmişəm

dünən tanış olduğum qıza

zəng etmək istəyirəm

di gəl ki telefonunu almaq

yadımdan çıxıb

heç vaxt bir şeyə yaramadım

bir az üz göstərdilər ki

ağzım qızışır

və əsas məsələlər yaddan çıxır

Neynək yaz ora, Tale

yemədi getdi

bu da bir Tale xətti

qoy rədd olsun

onsuz da biz sevişsəydik

üst paltarlarını çıxarmayacaqdı

nəyimə lazımdır belə sevgi

qoy özünə 18 yaşında

oğlan tapsın

ərincəklik tutub məni

saata da baxmıram

bezmişəm artıq

onsuz da 12 rəqəmindən

birinə ya işləyəcək

ya qalacaq

ya da ən pis halda

tamam olacaq

Atalar deyib

yüz baxmaqdansa

bir çıxmaq yaxşıdır

Duraq çıxaq şəhərə

görək nə gəlir başımıza

Televizorda boş-boş danışan

Mübariz Tağıyev

sən də sus orda

Yenə də bazar dolu ciblər boş

çiynimə atdığım pencəyimin də

cibi boş

vicdanım kimi

Ancaq yox

siqaret varsa cibdə bir qutu

basılmaz vətən

bir də həmişə tapılar

qara bir qəpik

cuppulu bir saqqız almaq üçün

başımızı qatmaq üçün

yaşasın baş nazir

irəli

girirəm marketə

burda da əsəb allahı

kəsir başların üstünü

müdir bağırır yenə

səhərin gözü açılmamış

satıcının üstünə

böyük şey olub

cəhənnəmə tozludur

vitrinlər yenə

bununçün əsəbləşməyə dəyərmi heç?

ancaq heç tozluya oxşamırlar axı

bəlkə sənin eynəyin

tozludur, burjuy?

Və yaxud baxır

hansı tərəfdən baxırsan

bura bax, müdir

bəlkə axşam arvadın

verməyib sənə?

onunçün belə hirslisən

və satıcının üstünə tökürsən

hə, deyəsən korennoylar deyib bunu

ki səhər yuxudan

pis əhval-ruhiyyədə duran adamlar

yaxşı tərbiyə almayanlardı

indi bu ağır təhqiri

öz üzərinə götürəsi deyilsən ki

eh, bizim müdir tayfası da

qəribə məxluqlardı

səhər tezdən qanını

it qanına döndər

bütün günü dilxor gəz-dolan

yerişini-duruşunu itir

içinin acısını zərrə qədər də

günahı olmayan adamların

üstünə tök

nə olacaq axırı

bizə verilən zəhəri

başqasının üstünə ötürməsək

sakitləşə bilmərik

o da qoy başqasını zəhərləsin

tale xəttimiz bax beləcə

dövrə vursun

düşüncəsiz hərəkətlərimiz

neçə nəfərin ovqatını təlx edir

indi nə edək ki

arvadın sənə verməyib, əclaf

heç xoruzlanma

danlama bu zavallı qızı

dirol da almaram

problem yox bu sarıdan

onsuz da ac tələbə

heç kimlə öpüşməz

özünə saxla dirolunu

axşam məşuqənlə çeynəyərsən

bəli, insan sevişəndə

daha bol və xoş enerjiylə yüklənir

daha çox çalışır

daha az nifrət edir

və hər kəsə sevgiylə yanaşır

uğurlar sənə

çıxıram küçəyə

yel vurur

əsəbdən portmüş üzümə

siz deyin nədən

yolunu azmış kimi görünür bəzən

gah sağa gah sola düşüb

yanımca yüyürən bu kölgəm

zəhrimar! saatımı unutdum yenə

televizorun üstündəmi

stoldamı

krovatdamı?

Nə bilim

ancaq unutdum saatımı yenə də

yol boyu düzülmüş

fındıq və alça satanları

nifrətlə seyr edirəm

keçirəm

tüklü kişilər

bədənləri portağal qabığı kimi

büzüşmüş yaşlı qadınlar

yarıçılpaq

göbəyi sırğalı gənc qızlar görürəm

bir xəstəxananın qarşısında

ağ xələtli qəssablarımızı görürəm

salam

görəsən sizin həkimliyə

nə qədər dəxliniz var?

Əclaflar

mənim böyrəyimin

hər ikisini çıxarıb

küçədəki itlərinizə atın

pulunuz yoxdursa satın

bölüşün baş həkiminizlə

mən bu azərbaycan adlı palatada

böyrəksiz

hətta ürəksiz də

yaşamaya bilərəm

Küçənin o üzündəki məsciddə

evroremont gedir

yaxınlıqdakı şadlıq evində isə

fışfışanə düdüş toyudu

mənimsə başımda qasırğalar

ağzımın içində nikotin dadı

şalvar beldən düşür

itmişəm bir şalvar bir köynək içrə

cibimin küncləri deşik

yayın istisi

qəmin tüstüsü

çəkir məni imtahana

Daha nələr var tələbə menyusunda

əlbəttə ki yağlı söyüşlər

boş boşuna küçələri gəzərkən

acqarına, yalqızcasına

bu soyuq şəhərdə

daha nələr gələr tələbənin başına

ac qarın tanımaz sevgi-məhəbbət

ac tələbə sevəndə yorğanla əyişər

sonda da yorulub var-yoxunu söyər

siyasət xanımın

davam edək yolumuza

bu də müstəqillik prospekti

dünən hisin-palçığın içindən çıxanlar

bu gün buğlana-buğlana gəzirlər

tələbə isə qırılır

qədimlərdə babamızın düşməni

Təpəgöz olub

bizimki təpəgöz dərd

asif ataları

yumağa döndərən dərd!

Tələbənin həmişəlik

ömür-gün yoldaşı

alın yazısında tərlə yazılmış

parıltılı bir ştrix

qaniçən milli burjuaziya

tıx nə qədər tıxırsan

sıx nə qədər sıxırsan

ordumuz ordunuzdan batıqdı

sönükdü qaçan batayın

ordusu tək

yaxşı ki biz hələ

sizinlə bir arada deyilik

ənamlarınıza aldanıb

qakqıldamamışıq

hardasan 11-ci qızıl ordu?

bəli, yoldaşlar

sovet dönəmində seks yox idi

əsl seks indi gedir

Ac köpəklər

mersedeslərdə gəzir

lopa bığları sallanır

qızıl dişləri parıldayır

yekə qarınları

ulğumlarından başlanır

Görəsən başqa şəhərlərdə də

bu cinsdə

mersedesdə gəzən köpəklər olurmu?

Açıqcasına deməliyəm ki

ac olanda bu suallar

məni mazg edir

Bir az irəlidə bir köpək

boynu kəndirdə

kəndirin bir ucu qoca köpəyin əlində

yoldan keçir qoca dilənçi

kimsə imza atıb

gözünün altına qara yumruqla

yoldan keçir qoca dilənçi

və ehtiyac şaqqıldadır dişini

hürür köpəyə qoca dilənçi

guya niyə kolbasa atır

qudurmuş yiyəsi köpəyə

Eh, dilənçi, nə işin var

köpəklə

o da insandır

bəlkə də insandan da

insandır

Ümumiyyətlə belə görünür

bizdə iki cür olur insanlar

dik duranlar

və C vəziyyəti alanlar

Oppa!

Xanım oçkiniz düşdü

əyilib götür

keçib əziyyətdən

mən əyilən deyiləm

ona görə yox ki

bomba oğlanam

ona görə ki

mən sənin gözündən

çoxdan düşmüşəm

pulsuzluğumla

Opa!

aziya-yevropa

öz aramızdı

Oçki gözünüzdə olanda

avropalıya bənzəyirdiniz

gözünüzdən düşəndə

asiyalı çıxdınız

qıyıq gözləriniz o dəqiqə

bayıra tullandı

O qərbliydi sanki,

bu bir şərqli

burda deyiblər bum!-

sivilizasiyalar toqquşdu

caz və saz duet

Hə, qıyıqgözlü qıpçaq qızı

bilsən maşınım var

bilsən evim var

varım var

yəqin ki sevərsən məni

vidimə də baxmazsan böylə

asiyalısan axı

əvət

pulum olsa mən də

çox orijinal bir oğlan olardım

sənincün

hə sən öl

heç özünü dartma göylərə

sən böyük ola bilməzsən yavrum

kiçiksən çox kiçik

yalnız mənə layiqsən

əyil əyil götür

yerdəki eynəyini

nə olsun böyük şərqin qadınısan

zavallı

duyğuları

içi bomboş

qul kimi satılmış

və izi silinmiş

şərqinin böyüklüyü yox daha

əyil əyil götür

mən əyilməyəcəyəm sənin yerinə

bax belə

asiyalıya əyilmək

necə də yaraşır

davam edək dalşe

küçənin tinində camaat yığışıb

və ans çəkir

nimdaş kostyumlu bir yazıığı

uzadıblar yerə

maşın vurub

nol yeddi imiş deyirlər

çıxıb aradan

uzadıblar üzü qibləyə

belə şeylərə maraqlı xalqımız

yığışıb başına

kimliyi bilinmir

bəs necə

gözlərinə baxacaqlar

ürəyini yoxlayacaqlar

cibinə belə, əl atacaqlar

kimliyin ürəklərindən deyilsə…

Ağzın qanlıdırsa tüpürmə, canım

Burda torpağın da gözü var

alnın fəlakətin aynasıdır indi

Gülüşlərini belə gizlətməyəcək kimsə…

Sus ancaq sus

Burda falş yol tutub gedir…

cibindən qara qəpik pullar

və ağ təbaşir qırıqları çıxır

yarımcan zavallının

Ooo! Aydındır

Gələcək kolleqa!

müəllim olub yazıq

adpu-nu qurtarıb yəqin

o da bizim kimi

ey misir müəllim

gəl işçini apar

cərcənək oldu

uzaqlaşıram oradan

Ah köksümdəki kokos

ürək- bu sirli əzələ

yenə göynətdi şoğərib

belə getsə validolsuz ötüşməyəcək

heyf

mərkəzi küçəni bağlayıblar

fırlanıb keçmək lazım gələcək

heyf

bu gün oralarda sülənəmək

xoşbəxtliyi nəsib olmayacaq bizə

Prezident korteji keçəcək

yəqin yenə də harasa

istirahətə gedir birinci

müxalif kütlə qəzəblə baxır

qoltuqlarında qəzetələri-

bu propoqanda kağızları

nə olub nə gözünüzü zilləmisiniz

naftalin iyi verən biveclər

Prezident yevnux ola bilməz ki

ixtiyarı var yesin

içsin

mahnı oxusun

çünki hər halda adamdı

portret deyil

büt deyil

heykəl deyil

davam edək gedək

rütubətli zirzəmilərin

ofis olmaq sevincinə

şərik çıxan günəşin

utancaq baxışları altında

bu balaca retro ev

gör necə qısılıb binaların altına

şəhərə nəzarət edən o zalım tiran-

“Gilan-xoldinq”in qaldırıcı kranı

onu görməsin deyə

hər yerdə xoldinqlər

həzrəti biznesin seksualları

bütün girişləri kölgələyiblər

dəblər sərgilənib fontan bağında

ağ maya metis qızların

sırğalı göbəkləri üryan

sevdalı duyğular yatırım yığır

bəbəklər bədən yalayır

bir kimsədən utanmadan

havada eşq qoxusu qurtarmaz

bir tərəfdə bir cüt

bir-birinə möhkəm-möhkəm sarılaraq

cənnətə yol arayırlar

dodaqlarının köməyilə

gülümsünə-gülümsünə keçir

başı jellənmiş bəmğəyaz bir oğlan

bəlkə zina cocuğuydu

kim bilir

ortalıqda bir məşhur deputatsa

məşuqəsi olan jurnalist qıza

müsahibə verir

arxası heykələ

xarici görünüşcə cəlbedici

sifətinin rəngi

yetişmiş buğdayabənzər

ucaboy qıyıqgözlü olurlar

bizim deputatlar

elə qız da ona bənzəyir

elə bil bacı-qardaşdırlar

deputat nəsə basıb bağlayır

jurnalist qızsa yalandan gülümsənir

yox day-day

mandatla qəlbə seviş girməz

get seçicilərini otar

Bir qız da sallaşıb

bir oğlanın yaxasından

Tı takoy vkusnıy, yerazik

ey qaqaş, sən deyəsən

işə keçmisən

O oyunu ki, açmısan

bu Yurta adlı

tatar xanımın başına

hökmən onu almalısan

kəbin kəsdirməlisən onunla

başqa yolu yox artıq

başqa yolu yox artıq

yenə də haradasa

səslənir bu mahnı

oyadır məni hisslərdən

Davam elə qaqaş

düz tutmusan

sevginin bir yolu var

o da seksdir

əlahəzrət seks

başqa yolu yox artıq

başqa yolu yox artıq

Nizamidi də

öz leyli-məcnunuyla

saxta ülvi sevgini

sırıdı bizə

atdı bizə atdı

o gəncəli balası

Oho!

tanış üzlər, tanış səslər

budur vaxtilə

mitinqlərdə bar-bar bağıran

qocaman xalq şairi

Parapetdən düşür üzü aşağı

Necəsən şair

Kayfı varmı?

Bir başını qaldır

ətrafa bax

gör nələr var

vaxtilə proletariata

ölürəm sənincün deyən

qızlar indi

sənincün ölərəm

deyir pullu oğlanlara

Bu da bir yenilik

bir hərf dəyişib

sizin şüar dolu

bağırtılarınızdan

qızların ehtirası

pul kisəsində qaçıb gizlənib

bir daha yüksələn təzyiq

bir daha enməz

istəyirəm qalxam

gicgahımı yüksələn fəvvarənin

altına tutam

bəlkə bu sakitləşdirə əsəblərimi

heç bu da kömək etməz

Hey

uzun direklər kimi

arxamca sürünən

kölgəm

Gəl gedək burdan

sürünək üzü bulvara

yoxsa zay edəcək mədəmizi

çürük dönərlərin tüstüsü

dərman reklamlarından baxan

tox yəhudi balalarının

rişxəndli gülüşləri də

kömək etməyəcək bizə

Salam Bakı bulvarı

mənim kirli dənizim

səni salamlayır ac

azəri oğlu

mən Azərbaycan mülkündə

heç bir cənnət görmədim

hər nə gördüm əyri gördüm

başqa halət görmədim

şəmi tək yandı canım

pərvanələr fərağında

qaranlıqlar, bəsdi daha

qoy gündüzə çıxım gedim

həyatım başdan ayağa

ayaqdan başa

səhvlərlə dolu

bezdim daha

əgər bu təhsildirsə

onda mən kosmonavtam

bir-iki dəfə istədim

institutu atım qaçam

atama və onun verdiyi xərcə

yazıqlığım gəldi

eh, dünyaya gəlişim yanlış

yaşamağım yanlış

bir tək budur həyatımın

ən düzgün addımı

intihar

bu yazını oxuyan tələbələr

əzizlərim

siz intihar etmək fikrinə düşməyin

yaşamağa dəyər

bizə udmağa hava veriblər

bəs necə

bir də ki gözəl xanımlara

pulsuz baxırıq

daha nə istəyirsiniz?

Həp bərabər oxuyaq:

sağ ol şəhər meriyası

keçid dövrünü

bir cür bir təhər yaşadıq

müstəqillik illərini də

jımıx yeməklə keçirdik

indiki dövrü ancaq

sağ qalmaq üçün

gəmirişmək dövrü adlandırmaq olar

bu gün aclıq kabusu

məmləkətin üstünü dolaşmaqdadır

irsidir xəsətəliyimiz, irsidir

atamız acgözlükdən öldü

biz də acından ölürük

dua oxuyaq Sovet hökümətinə

həp bərabər

xoşbəxt uşaqlığımıza görə

həp bərabər oxuyaq

qəbri nurla dolsun

qayğıkeş kişi olub Stalin

yazımın bu hissəsini də

uşaqlıq illərinin yarısını

bu xoşbəxt quruluşda yaşamış

yarısını bu quruluşun

dağıntılarında itirən

həmyaşıdlarıma həsr edirəm

uşaqlığımızı pis keçirmədik, dostlar

Sovetin məktəbli konfetlərinə

taxta peçenyelərinə

qırmızı şirin xoruzlarına

gün çatmaz

uşaq bağçalarının

boyalı təpəciklərinə

ağ önlüklərə,

qara donlara

göy məktəbli kostyumlarına

ay çatmaz

pioner qalstuklarına, saç lentlərinə

komsomol nişanlarna

il çatmaz

qaldı arxada artıq

ömrün xoşbəxt anları

dörd mövsum

yeddi qitə

mavi göy üzü-

bütün təbiət, hardasınız?!

Salamat qalın sevgililər

Uşaqlar

universitet tələbələri

gənc qızlar

sonsuz hava dənizi

pionerlər

və ulduzlar

salamat qalın

simfoniyalar

oyun havaları

sevda nəğmələri

və şeirlər

salamat qalın

salamat qalın

dostluq məktubları

səsimizə səs verən şəhərlər

xatirələr dartır məni

ayılıb görürəm ki

bulvarın daşına çatmışam

Gərək hökmən ataq

özümüzü Xəzərə

dalğalar bizi götürə

uzaqlara

çırpa ruhumuzu qayalara

Ancaq onda qurtara

dərdlərimiz?

Yox biz belə etməyəcəyik

Elə deyilmi, dəniz quşları?

Gör necə də xoşbəxtdirlər

biri oturur, biri uçur

yenə qağayıları

yığıb başına

batan gəmilərin və şəhərin

nağılını danışır dənizim

Yelkənlə gəmilər də

dalğaların ritmində

Arxadasa

satıcılar

foto aparatçılar

rəssamlar

boşalmayan oturacaqlarda

əmişən tanışlıq elanları

Qanımın qara vaxtında

hardansa peyda olurlar

züy püfləyənlər

dümbəy dələnlər

buxara papaqlı

girzavoy sapoqlu

aşıqlar dəstəsi

şou yapıyorlar

köhnənin kişiləri

çal aşıq çal

əli dəryazlı ölüm tanrısı

yar olsun sizə

qanım it qanına dönmüş

canım it canı

Bdışş!

Sağ ol ağsaqqal!

bir tuş

bir mahnı çal

nə kitaba yazılıb

nə dəftərdə yer alıb

nə də kişilikdə payı yoxdu

Dalıyca bir atəş

İmza

Ağ çaqqala hörmətlə

Allah özün saxla

nağaraçıya nə oldu

birdən birə

papağın içinə deyəsən

xırda pul atdılar

cingilti diksindirdi onu

qoydu üstə

deşir dümbəyi

eşir yerində

vurub tut arağından

güc nümayiş etdirir

off… baş-qulağımız dəng oldu

zəhrimar lap əsəblərə işləyir

düdük zurna da

kaftar kimi ulayır

əclaf saz isə

lap dənizin dibini silkələyib

o tərəfə keçir

cəhənnəm segahı

başına götürüb bulvarı

Aman allah

burda da qoymurlar

rahat ölməyə.

Mən getdim evə!

Aldanmış ulduzlar

Mən hələ də buraxdığın yerdəyəm

gözlərim dikilib yollara

və gözləyirəm dönüşünü.

Əsən.

Solğun aylı gecədə

ulduzlar sarsıntıda

yenə həmin görüş yeri

Alovlanır köksüm vulkan tək

və ürək

arzularla çırpınır

Danışmırdım ki

qaranlığı diksindirərdim.

Onunsa

gözlərində islaq kipriklər

əlinin arxasıyla silərək

ürəyi qan

köksü qan çanağı

Dinməyirdi

susqun idi.

Ulduzlar

öz yolunu azmış yolçu tək

boylanıb tamaşa edir

ürəklərdəki mehin

gecə rəqsinə.

Bir ulduzsa axır

sanki sevgi dalınca…

Sükutu o pozdu

əzqin qaranlıqlara

çevirərək

donuq baxışlarını.

“Düzmüdür?”

titrək səslə soruşdu.

Yox, belə səhnə

mənlik deyil.

“Hə. Evlənə bilməyəcəyik.

Anam icazə vermədi”-

tez-tələsik söyləyib

qaranlığa sarı

sivişdim.

Amma üşürdüm

soyuq zülmətdə

Gizildəyən şüurumda

çat verir qaranlıqlar…

Terror

Bəri başdan deyim ki

gəl bakı-ceyhan kəmərinə

toxunmayaq

onu heç xəyalına da gətirmə

Demək,

Səni günün batısında sevdim

və gecənin qaranlığında

Səhər alatoranlığında

bir başqa ləzzət

Musiqi mərkəzinin

işıqfor fonunda

Xalça tapa bilmədik

kovralitin üstündə

Hətta manyakın peyda olduğu

meşə massivinə də getdik

körpünün altında alınmadı

çünki polislər gəldi

Eybi yox, baqajın üstündə qalsın

kreditə maşın götürənə

Hətta fürsət tapıb

qardaşının bağ evində

gizlicə sevişdik

Qardaşımın qarajında

saya alınmır

çünki dəmir instrumentlər

yanını yaman əzmişdi

Mətbəxdə stolun üstündə,

vannada

anangildə

demirəm

çünki onu

uşaq da bacarar

Ancaq səni

güzgünün qabağında sevdiyimi

unutmaq olmaz

çünki o zaman

özümü gördüm.

Fəsillər

İndi isə səni soruram

Hər əsən yeldən

Hər yağan yağışdan

və

hər solan çiçəkdən.

Əsən.

Həyat elə yazda

qəfil yağan yağışın

onun yanağında itirdiyi

göz yaşlarıdı

silib itirmisənmi?

Demək hələ yaşamamısan.

Həyat elə yayda
qısqanc dalğalar önündə
onun göbəyinə tökdüyün
qum dənəcikləridi
Küləyə vermisənmi?
Demək hələ yaşamamısan.

Həyat elə payızda
xəzanın tökdüyü yarpaqlar
üstündə uzanaraq baxmaqdı
onun tutqun gözlərinə
bir şey oxuya bildinmi?
Demək hələ yaşamamısan.

Həyat elə qışda
sakitləşən quru qardan
ona atdığın lopalardı
uğunaraq
Hədəfə tutmusanmı?
Demək hələ yaşamamısan.

Tələbkar tələbə -2: Cındır otaq

Səhər tezdən yenə də
ev sahibəsinin quduz səsi

başına ğötürüb evi

“Bu gün ev pulunu çatdırmasanız

tökəcəm şələ-şülənizi çölə”

Əzizinəm, Heyne

sən də nəyi qoyub nəyi axtarırdın

Mən bütün Avropada

asanlıqla sülh yaradardım

ancaq qabağıma bir-iki

azəri qadın çıxdı ki onları

heç sakitləşdirə bilmədim

Səhər tezdən durub sol gözümlə

bu cındır otağı bir xeyli seyr edirəm

sağ gözüm nədənsə bir müddət

gec açılır sol gözümdən

Yox mən solaxay da deyiləm

sadəcə evpulunun vaxtı çatanda

bütün hisslərim sola verir

Evpulunun vaxtı isə

yaman tez-tez gəlib çatır

Otaq yoldaşım İntiş çoxdan getmiş

nə imiş

günortayadək yatanıydı

mamış oğlu mamış

yerini də yığışdırmamış

sınmış divanın nəvazişli dillərindən

qıc olmuş sol qolum

gizildəyir biləkdən

sol əlimi açıb yumuram dalbadal

bu da mənim səhər idmanım

guya ki məndə gənc nəslin

sağlam nümayəndəsiyəm

Aclıq səni çapırsa, ay Alı kişi

nəyin sağlam ola bilər

dirsəyindən başqa

kəsilmir ev sahibəsinin quduz səsi

Yenə fikirlərimi aparır

sola, sola, sola!

Durub İntişin köynəyini

əynimə keçirdirəm…

bilsə itə dönəcək

sonra otaqda əlimə keçən

daşdan yumşaq nə varsa

hamısını yeyirəm

heç ağlım kəsmir

başımıza gələn bu hadisələrin

təsirindən çətin avropalaşaq biz

kəsilmir ev sahibəsinin quduz səsi

öz otağında oturub bizim otağa tərəf

hürür, hürür, hürür

özü də öz evi olduğu üçün

it kimi çox zildən hürür

bəsdi də ay xala

yəqin ki intiş axşama

pul tapıb gətirər

it balası it

Qoy zəhrimarımızı yeyək

Ey xırçaxırçla təpişdirdiyim

kifsimiş çörək arasındakı

qənd qırıqları

siz axşam xəyalıma gətirdiyim

iudey qızı Saradan

şirin ola bilməzsiniz mənə

itirlmiş enerji bərpası

sürtülmüş qızlarda bir cür olur

əzgin tələbələrdə başqa cür

Dörd il ərzində anladığım

ən elmi şey elə bu oldu

Yox bu xırtçanaq çörəklə

yavan qənd qırıqlarından

fatıya tuman olmaz

gərək bir şeir yazam bu münasibətlə

Ruh ki var divanə dərvişdi, xala

şairlik, dərvişlik bir işdi, xala

gəlib başımıza

yazmışdım

yazıram

vərdişdi, xala

prostu

mənim şairliyim pis vaxta düşdü dana

şairlər qurşandı dərd alverinə

mənim şairliyim, ay xala

pis vaxta düşdü

necədir

deyəsən heç də pis alınmadı hə?

intiş də deyir mən də şairəm

bilsə mən də gizlincə şeir yazıram

itə dönəcək

Demək, İntiş, əvvəl necə olur

şeirimiz yalnız bir qadını istəyir

poemamiz bir neçəsini

şöhrət qazanandan sonra isə

hamısı keçir könlümüzdən?

Yox, İntiş

mən sənin kimi ola bilmərəm

əgər məşhurlaşsam da

hər yoldan ötən qızla sevişməyəcəyəm

söz verirəm

Nəyimə lazımdır

yöndəmsiz poza

bir neçə dəqiqəlik kayf

xərci də çox böyük

Hələ arada sənin kimi

xəstəliyə tutulmağı da var

Qonorar arzusundan qonoreya yuxusuzluğuna

şanlı bir döyüş yolu

keçmək istəməzdim əsla

Yox, mənə belə həyat

lazım deyil, qardaş

ondansa xəyalımdakı çılğın Sara

çatar imdadıma

Tfu sənə, İntiş

eşq virusuna yoluxanın

nə odu olar, nə əlacı

Ay canı yanmış Fəridə

qadınlar əri öləndən sonra

nə yaman quduzlaşırmış, ilahi

az hür də

çatar pulun darıxma

qoy şeir yazaq dərdə

gərək indidən

birdəfəlik müəyyənləşdirim

hansı yöndə yazacağımı

öz imicimi formalaşdırım

biz şairlər böyük bir tayfayıq, qardaş

yerdə olub qələmlə gor qazanlar var-

onlar realistlərdir

yerdə olub yerə siyənlər var-

onlar romantiklərdir

yerdə olub göyə daş atanlar-

onlar modernistlər

göydə uçub yerə zıllayanlar- vay!-

baxışlarını deyirəm-

bax onlar postmodernistlərdir

bunların heç birindən olmayanlar-

bizdən deyil koroçe

müəyyənlik təyini-

budur yazar olmağın

ən vacib şərti

bu kirayə otağın köhnə divar kağızları

solğun çiçəkləriylə kimləri qarşılayıb

kimləri yola salıb

divardan asılmış islamın müqəddəsləri

dərdi lap artırır

yox, üzümü çevirirəm yana

mənim o dünyayla nə işim var

mənimki bu dünyalıqdı

poeziyada mənim cənnətim

elə bu cındır otaqdı

masamın küncünü

divarın bir hissəsini

sol əlimi seyr edirəm

pəncərədəki pərdənin

üstündəki gül rəsmləri

çağırsalar da gəl

dur yığ dəstə bağla

onlar mənə gərək deyil

gülə-bülbülə şeir qoşmaq

mənlik deyil

yaşıma yaraşmaz

nə danışırsan

onu yalnız

qocalar yaxşı bacararlar

masamın küncündə vazaya taxılmış

dekorativ çiçəklər bəs edir mənə

ilham almağa

bir də ki

başımın üstündə çıqqıldayan

çin səddində istehsal olunmuş

saatın içindəki

xırda süni çiçəklər

böcək boyda olsalar da

göz oxşayır ruhuma

ayın günün nə vaxtıdır

ay qocaman şairlər,

deyirəm görəsən

ilk dəfə şəbi-hicrana şeir qoşan şair

dünyadan köçəndə saat neçəydi

ay qocaman şair,

ayın günün nə vaxtıydı

helmsiz şair olmaz

ay qocaman şairlər

olmaz olmaz olmaz

o eynəkli gözünüzün tozunu silib

diqqətlə baxsanız

əslində səma parçasını seyr etməklə

bir şey tapmazsınız

olsa-olsa bəlkə axşam

heç mən onu da qəbul etmirəm

Rədd olsun ay işığı

onun da işığı özündən qaynaqlanmır

onun da üstündən bir xətt çəkirəm

onu da buraxıram barmağıyla heca sayan

qocaman şairlərin öhdəsinə

qoy ayın da polajeniesinə

onlar baxsın

ürəyim tək düyünlənmiş

sol əlim kölgə salır

yazılarımın üstünə

lakin iliç lampasına güvənirəm

əslində

universitetimizin auditoriyalarını bəzəyən

qlobollaşmanın məhsulu olan

neon lampaları belə

zövq vermir mənə

çünki xəstəlik yaradır adamda

beyin şüalanması

böyük məmnuniyyətlə

təbii alovun işığına

şeir yazardım

məsələn, gənclərin

yığışdığı tonqalın şöləsinə

bu başqa məsələ ki

həm zövq alırsan

həm qızınırsan

həm də şeir uydurursan

bala-bala

yaman od vurdu

qocaların atasına

şeytan qız Nərmin Kamal

yanmış xarabalıq ortasında

şeytan qədər qəşəng görünürdü

şeytan qız Nərmin Kamal

Bu hadisədən dərhal sonra

Azərbaycanın Milen Farmeri

elan etdik Nərmini

Minilliyin qadını seçdik

onu arzularımızın qanadlarında

mənim Janna de Arkım

mən də şeirlərimlə

səkkizinci möcüzəni göstərmək istəyirəm

gənc dostlarıma

od vurmaq istəyirəm

vətənimin nemətlərini çapıb talayan

sionistlər evinə

və həmin odun şöləsinə

qızındırmaq istəyirəm gənc dostları

stalinin vətənpərvər ruhunu

bunu hətta düşünərkən belə

istilik gəlir mənə

durub fortoçkadan başımı çıxardıram

can ey

küçə itlərinə aclıq gəlir

şairlər mövzu

küçə itlərinə ruzi gəlsin

şairlərə qonorar

(İlahi, xırdalama

bütöv yetir bizə)

Bir iş də var ki

itlər tapanı özü yeyir

şairlər tapanı hamı

odur ki

Əzizinəm, Heyne

ey şeir ilahisi

özünü yetir

ilham ver mənə

Axı biz qohumuq

sevdiyim çılğın Sara da

sənin kimi cühud balasıdır

nə baharı sevdim

nə çiçəyi

nə göy üzünü

Səni sevdim, Sara

otağı ölçməkdən

ayaqlarımın altı ağrımağa başlamış

stolun üstünə qoyduğum

beş-altı vərəq də qalmış ağappaq

ürəyim sıxılır vərəqin üstə

lənət sənə kor şeytan

başqa bir ağız istəyirəm

bir ağız ki

sözlər avtomatik deyilsin

bir sehrbazın papağından çıxan

göyərçinlər tək pırıl-pırıl

deyirəm mən şeir yazmağa

söz tapmıram

bunlar hardan tapırmış

bu qədər sözü

Can ay Süleyman Rüstəm

bu keçəl kişi

göydə uçan laykadan üzü belə

ilham götürürmüş:

“Layka uçur göydə eləyir ham ham!

Mən yerdə onun səsinə alıram ilham”

əhsən bərəkallah

Biz olsaq utanıb yerə girərdik vallah

onların dili var

qulaqsa kardı

Deyirəm, yaxşı ki, layka vardı

yoxsa ki yazıqlar bekar qalardı

Gəl oxucum onlara gülək doyunca

Biz gülsək onlara dərdlər azalar

onlar çox ağır adamlardı

gəl tullayaq onları boynumuzdan

hürüşə bu qədər şeir uydurunca

bir şum vursaydılar meşə olardı

elə deyilmi?

Mənimsə şeirlərimdə fırlatmaq yoxdu

məndə konkretdi

ya sevişmək var

ya da sevişməmək

bir də ki

ay dadi-bidad

ay səni ölmüş Fəridə

səsi kəsilmək bilmir

imkan vermir yazmağa

verərik də

nə olub az

yəqin ki İntiş axşama tapıb gətirər

əgər yolda qabağına yağlı bir qız çıxmasa

əclafın

Ah, bu İntiş

nə dillər bilir, Allah

deyir

hərdən quş dilini də

öyrənmək lazımdır

civildəməmək şərti ilə

Ancaq yaxşı kı elə İntiş

cənnətə getməyəcək

Nə ola-ola bu məni sakitləşdirir

Yoxsa heç elə də iş olar

İntiş də cənnətə gedə

kənddəki itim də,

mən də?

Hələ o da ola bilər ki

cühud qızı Sara

məni qapı ağzından

geri qaytartdırsın

çifayda heç kim

göydəki atamıız tək

eybsiz deyildir

eh onsuz bu alın yazısıyla

məni cənnətə buraxan kimdi

mən ki namaz qılmadım

oruc tutmadım

ağac basdırmadım

bulaq çəkdirmədim

yol saldırıb

deputat seçilə bilmədim

ailə qayğısı çəkmədim

balalarıma bir gün ağlamadım

hamısını doğulmamışdan

unitaza töküb qırdım

elə belə

alıb verə

iş düzəldə

iş verə

savab və pul qazana

bilmədim qardaş

bacarmadım

bacarammadıım

həyatımın problemlərindən

qaçıb qurtula bilmədim

hamısı üstümə qalandı

bir-iki yazı yazdım

gördüm bundan da o yana

gedəcək təbi-tavanım yox

onun da başına buraxdım

başqasının zir-zibilini oğurlayıb

bəzəyib düzəməklə məşğul oldum

“mənim yazıq balam- çirkin plagiat,

xoş gəlmisən”

deyərək basacaqlar bağırlarına

və məni dartacaqlar

cəhənnəm darvazasından içəri

əziz və çoxdan yeri görünən

bir qonaq tək

Ay dad

mən hələ təyinat yazmalıyam

rayona praktikaya

göndərirlər bizi

anket doldurmalıyam

elə yaxşı oldu

tez çıxıb gedərdik

canımız qurtarardı

bu quduz Fəridənin əlindən

salam anket

çoxdandır doldurmuram sənə

Ailə vəziyyəti gərgin

yaşadığı yer

cəhənnəmin dibi

anam evdar qadından çox

maldar qadındır

Düz deyirdiniz, cənab dekan

halaldı, yaxşı dediniz

düz qəlbindən vurdunuz

ailə kiçik dövlətdir

nə gözəl dediniz

sən bir söhbətə bax

Biz də elə İntişlə

kiçik dövlətik

ancaq pulumuz olanda

qardaş oluruq

pulumuz qurtardı ki

savaşırıq həmişə

İntiş deyir mən ailənin

11 illik məktəb görən

ardınca ali məktəb bitirən

yeganə üzvüyəm

elə bu keçidlərə görə

“kiçik dövlət” tərəfindən

dinsiz imansız yalançı

fırıldaqçı pozğun oğru

avaragor və sair

damğalarla damğalanıb

ən böyük müttəhim oldum

yaman ama

Heç mən də ondan

geri qalmıram

Bu ilki ən böyük uğurum

dişimi çəkdirməyim

və ev sahibəsinin gombul ərinin

öskürəkdən yıxılıb ölməsi oldu

çünki hər ikisi artıq

cana bezdirmişdi

bu dünyada diş ağrısından

və öskürəkdən pis şey yoxmuş

bu il başa düşdüm bunu

anlayınca mənki mənə gəldi

Heç mənki bu il gətirmədi

heç keçən ildə

Neyləmək

zəhrimar səadət ərzaq deyil ki

tapan kimi soxasan soyuducuya

bir qara daş tək düşdüm

dünyanın orta göbəyinə

ilk bahar gəldi də nəyə yaradı

könüllər yenə qırğın

ürəklər atəş içində can verir

ağaclar yaşarırkən

həyat saralır

sevgisiz

hesabsız

vəfasız

şeir yalan, şair də yalançı

çiçək solmağa məhkum

insan ölməyə

Ay səni ölmüş Fəridə

Ay səni yanmış Fəridə

Mən nə hayda

sən nə hayda

sən bir soruş gör

kəsirim nədən qalıbdır

şillədən sırtılan uşaqlar kimi

sırtıldım kəsir əlindən

qoy heç olmasa

təyinatımı axıracan yazım

rədd olum gedim

tələbə yoldaşlarım da

vızıv atmağa vaxt tapırlar

cin vurur təpəmə

telefonda kontur yox

anketi cırıb tullayıram

kağıza verdiyim

bir abbası da belə getdi

bu günümüz də zəhrimar oldu

dünya beş günlükdürsə

ay hörmətli dekan

bəs şənbəylə bazar

hara getdi?

Bir keçəl başına vur də

arada dınqıldat

sonra tumarla

durum çıxım şəhərə

görüm nə var nə yox

tərk eləyim

öz kiçik cənnətimi

bu cındır otağı

yoxsa bir az da keçsə

partlayacaq bu mənzil

“aman rəbbim” bilməyən

deyingən ağız yenə coşar

və püskürər çölə

milli söyüş ehtiyatını

mən getdim, ay xala

sən elə də fikirləş

fırfıra adamların fırıldaqdı gördüyü

yəni zahiri görünüşün

həmişə aldadıcı olduğunu

hörümçək torlu

künclərlə əhatələnmiş

cadu etdiyin bu otaq da

köhnə bir çemodana bənzəyir

içində nəfəs də almaq olmur

özünə tabut olsun…

mən getdim

Ah səni yanmış Fəridə

Ah qadınlar qadınlar

o vaxt Adəmi də cənnətdən

qadın qovub çıxarmışdı…

Tələbkar Tələbə -3: Qəza günü

Heç yadımdan çıxmaz

Həmin dumanlı gündə

Axundov kitabxanasına gedirdim

Hövsandan

cib də bir qəpik pul yox

şoferə 28-də düşəndə

nə quraşdırıb deyəcəyimi fikirləşirdim

“Vay, bağışla, şofer

pul yadımdan çıxıb

pencəyimin cibində qalıb”

Bəlkə başqa cür quraşdırım

əsas fakt odur ki

bazar dolu ciblər boş

Nəsə

saldım bakı-ceyhan borusuna

əyri-üyrü diferensial tənliklər

axundovda yazacağım

diplom işinin mövzusundan çox

şoferə verəcəyim pulun dərdi

məşğul edirdi məni

şoferlər ponyatkalı olurlar

atam balası

əsasən bakı kəndlərində

qeydiyyatdadırlar

hərdən də qaçqın olurlar

heç onlar da pis deyil

Artıq bir neçə dəfə

sınaqdan keçirmişəm

Ancaq keçən dəfə pulsuz gedəndə

biri zor dedi: “lap yaxşı”

mənim özümü də gülmək tutdu

olmayan pencəyimin cibləri

bakı-ceyhan borusu tək

dərin göründü mənə

Nəsə

vurub çıxıb böldüyüm yerdə

deyəsən ikinci dayanacaqda

sanki tormozlanma getdi beynimdə

Mikroavtobusa

bomba bir şey mindi

saçları cenifer lopesin saçları tək

buruq-buruq

anna maria amore mia!

dilləndi instrument

dayanmazmı urəyim

durmazmı ya

Elə bir jestlə durub ki

sanki bu saat durub

ona yer verəcəyəm

sanki laklanmış dırnaqları

mənim oturduğum yerin biletiydi

bomba dizləri var

gözlərinə baxıb

təyin etmək çətin deyil

süni şəkildə qabardılmış

büstqalter

süni kiprik və parik

gözünün üstünə çəkdiyi

eskizlər bir başqa aləm

sifətində də yarım sant

israilin bayram kremi

Adətən belə süni əldəqayırmalar

şikayətlənirlər ki,

“Artıq həqiqi kişilər yoxdur”

Hə, gözəl xanım

onu da ora əlavə et ki

indi heç onlarda

mədəniyyət də qalmayıb

Çünki yerimi sənə verən deyiləm

sənin nə kefinə

səhərdən axşamadək

anadangəlmə yarığınla

pul qazanırsan

Mənsə səhərdən axşamadək

acqarına ayaq üstə

diplom işi yazıram

Mənə elə baxma, gözəl

Son zamanlar Bakıda qala-qala

peyğəmbərlik gəlib mənə

qürur hissi duyuram

üzə baxan kimi

maska olub olmadığını anlayıram

əvvəl bu başıma girmirdi

hamısı birdi mənə əvvəl

Bizə alqoritmin mistik açılışından

dərs deyən Aydın Sultanovun

mühazirələrindəndir yəqin

adamın sifətinə baxan kimi

qəhbə olub-olmadığını o saat tuturam

“Ey xalqım, mənə inan

bu qəhbələr səni ölümə aparacaqlar”

hayqırmaq istəyirəm

başqa peyğəmbərlər tək

Ancaq nə fayda

öz peyğəmbərinə inam gətirmək

bu azərbaycanlılar üçün olduqca çətindir

Axı o necə qəbul edə bilər ki

başqa azərbaycanlı ilahi olsun?

Hər xalq müdrikləri sevdi

bizim xalqsa müdrikcəsinə

maskanı bişirənləri

bu da bir başqa fakt

bir başqa vaxt yaz ora dəftərə

Odur ki istedad

məhv olub gedir, qaqaş

bu da olsun biri, atam balası

minlərlə dahi olur

ya tanıyanı olmur

ya daydayısı

ya da yerliləri

vaxtında hakimiyyətə gələ bilmir

Düz demirəmmi, gözəl maska?

Bəs sən hansı rayondansan?

Bağışla

özün bilirsən biz

bu sualsız yaşaya bilmirik

bu da bir tale yazısı

qaradərili olsaydım əgər

durub keçərdim arxana

yerimi verərdim sənə

Lap Amerikada olduğu kimi

Ancaq yaxşı ki biz

Amerikada-zadda deyilik

və rejim aparteida yaşamırıq sənlə

odur ki yerimi sənə verməyəcəyəm

niyə bizdə bütün maskalar

qaradəriliyə meyllidirlər?

müstəqil olandan bəri

bu suallar məni mazg edir

Deyirlər ki bakıda 60-cı ilərdə

maskanı ələ alanlar ruslar imiş

70-ci illərdə isə maskayla kayf edənlər

ermənilər imiş

80-ci illərdə maskanı bişirmək üçün

yəhudi olmaq lazımmış

indilərdəsə

qaradərili olmağın kifayətdir

bəs edir

enə-enə gəlirik

bəs bizə nə zaman növbə çatacaq

bilmək olarmı?

Biz aborigenlər

hələ də yaşayırıq sevgi xətrinə

tərcuman tapmırıq tanrı xəttinə

Arzumuz uzundur, imkanımız dayaz

bəxtimiz zəncidir, atamız bəyaz

ömür bir qumardı, bizsə qumarbaz

tale əlimizdə kartdı bizimçün

sanki hansısa gözəgörünməz qüvvə

inanginən mənə

qarri kasparov olub

bizimlə şahmat oynayır

sübut etmək istəyir ki

biz bu oyunun adi peşkaları

uşaq oyuncaqlarıyıq

Deyirəm bəlkə allah boyayanda

dünyanı qara

boya bankasından bəxtimizə

tökülüb qara?

Ey öndəki şofer

maşını yavaş sür sən orda

kartoşka-zad aparmırsan

Yox

yerimi verməyəcəyəm, qada

qoy qaradərili abrikos

minsin yer versin sənə

Yaxşı bəsdir zəncinin qarasına

o ki var deyindik

gücümüz yalnız gücsüzlüyümüzü

sübut etməyə çatar

Yoxlama Allah

bizim qarışıq mallar mağazasından

baş açа bilmədi ki bilmədi

Qəflət yuxusu çin olamaz

olamaz əmioğlu olamaz

Eh şair deyir ki

dünyanı başını burax,

qayıt reallıqlara

mənsə deyirəm

dünyanın başına burax

onsuz da düzəlməyəcək

babalar da yaxşı deyib

əgər mikroavtobusda

maskaya oturmaqçün yer vermirsənsə,

onu bişirmək fikrindən vaz keç

Ey şofer sən də asta sür maşını

bu tısbağa kimi dar iuda qazelində

ölmək istəmirəm, şofer

cənnətə getmək mənə hələ tezdir, bil

Axı nə var orda?

Axı dəqiq deyə bilərəm ki,

orda evlənmirlər və pivə vermirlər

Mənsə evlənmək və

çoxluca pivə içmək istəyirəm

Yanır ciyərimin başı

bir də siqaret istəyirəm

Sən də açıl başımdan

ay inəkgözlü maska

Get yıxıl ekzotik abrikoslarının altına

dollara transfer et sevgini

Sayğac qoş qaradəriliyə

sən öz çılpaqlığınla

Hoppan, qoy qaranlıqlar don biçsin

yarasa uçuşlarına

kalva qazan kalva

qalan hamısı boş şeydi

Ürəkli ol, qorxma allah keçər günahından

onun peşəsi elə budu

təki vətən basılmasın, valyuta gəlsin

Mənəsə səndən heç bir şey lazım deyil,

inan mənə

olsa-olsa bircə gilə siqaret

əgər varsa

bircə bu 28-ə tez çatsaydıq, ilahi

gözəl maska,

mənim dekorativ çiçəyim

Hə, demək harda qaldıq

Nə cür oldu

Allah birinci qadını yaratdı

sonra kişini

sonra kişiyə yazığı gəldi

ona siqaret verdi

Ah, yenə də bu siqaret

çıxmır beynimdən zəhrimar

soydu məni

günə bir paçka

bir aya vurur kəllə-çarxa

yol pulunu da verə bilmirsən

deyirdi atam deyirdi

çəkmə, ay zibil balam, düşəcəksən zibilə

Yox, gözəl maska, belə getməz

yerimi sənə verə bilməyəcəyəm,

incimə

gözünü də elə süzdürmə

bəlkə sən elə bilirsən ki

mən də kimi gördü

gəl gedək qonağım ol kişilərdənəm

Nəzərinə çatdırım ki heç də yox

tamam da yox

qoy bir az fikirləşim…

hə hə yox

nə qədər yaxırsan yax

yox ki yox

Get özünü neqrə cala

balanızın adı olsun neqroid

vətənoğlu

toyunuzda lap belə oxusun alqayıt

Mənə nə dəxli

yerimi sənə verməyəcəyəm

Heç problem də deyil, gözəl maska

o qədər adama yer vermişəm ki

di gəl ki yorulmuşam artıq!

Başa düşürsən?

Ah sevgili Saram

bütün bunları sənə danışanda

necə də güləcəksən

Nə bilim,

bəlkə də inanmayacaqsan

bəlkə də əsəbləşəcəksən

Fakt odur ki mən

bu dombagöz maskanın

gözlərinə aldanıb

ona yer vermədim vallah

əhdimə sadiq qaldım

Eh azərbaycanlı maska

sən nə qanırsan ki, həyat nədir

Həyat sən deyilsən

həyat altında inildəyən

ari qadınıdır

ari qadınlarını

yer mələkləri adlandırardım

mələklərin özlərini göylərin

ari qadınları sanıram

Sənəsə, azəri qız

maska olmağı arzulamıram

bu sənə heç yaraşmır

qaraçıya daha çox oxşayırsan

bu qiyafənlə

Başa düşürəm

səadətə tərəf iz axtarırsan

maskanı salırsan üz axtarırsan

Ancaq bilməlisən ki

bizdə adamlardan gərək seçilməyəsən

gedənin ağlına

geridə qalanın adına

söz çıxardırlar burda

Bəs qızın hardadır

o gözəl qızcığazın

Kimin əlinə vermisən

ümidinə qoymusan körpəni

doğma balanı

İndi yəqin o bağırır

Ana, kəndinə gəl

yanımıza qayıt

sir-sifətini düzəlt gəl

hə hə

Hardan bildim?

Ola bilər

Çünki mən bilirəm

sənin kimi temperamentli xalaşkaların

qızları olur həmişə

Bu mənə Sara deyib

mənim sevgili Saram

sevimli kamasutra müəlliməm

Eh cühud qızı Sara

Alı kişi demişkən

al da geysən yaraşır

şal da sənə

Səni adam görəndə çaşır, Sara

ürəyi yüz qırx döyünür

cənnətə belə sənsiz

getmək istəməzdim

lap cəhənnəmə də razıyam

təki sən ol yanımda

Yenə yadıma düşdün, qancıq

Hər şey gözəl idi

Bircə oxuduğun kitabın

birinci səhifəsində yazdığın

İzrail- eto prinç

sözləri qanımı qaraltmışdı

zövqlə saldığın yataq

Moiseyin keçdiyi susuz səhradakı

ilğım tək görünmüşdü mənə

Qalan hər şey gözəldi

Yatdığımız divan kimi

Halaldı səni doğan anaya

özzüm ölüm deyirəm

Elə bu dəm

dum dara-daram

desəm inanmasınız

təsəvvür etməzsiniz də

qəza baş verdi

maşınlar toqquşdu

heç inanmasınız da

iki 175 marşrut qazeli

baş-başa gəldi

hər şey bir anda oldu

biri boş işə gedirdi

biz minən dolu isə şəhərə cumurdu

sonra qəzetlər yazacaqlar

dumana düşdü

boş gedib dərəyə tullandı

bizim maşında isə şofer cərcənək oldu

bir arvadın qıçı sındı

yanımdakı alkaşınsa

bilinmədi harası

qabaqda bir cavan oğlanın

deyəsən xayası

Maskaya heç nə olmadı

ona görə ki sərxoş idi

mən isə həmişə olduğu kimi

şalvarımı islatdım

qorxudan

Ancaq otuz qəpik

irəli düşdük

ödəmədik bilet pulunu

olmayan büdcəmizdən

Bu da Azərbaycanda

olmayan həyatın

qiyməti…

Müəlliflə əlaqə: **profliqa@mail.ru**